## Oruç Dadaşi Elman

### Yarası Vardır

Şairin taleyi yarasız olmur
Sevinci gözündən, ürəyə dolmur
Mehnəti saralmır, həsrəti solmur
Odur ki əzəldən yarası vardır

Yazında çiçəyin açmamış satır
Yayında günəşi saçmamış batır
Qışında ceyranı qaçmamış yatır
Payızda xəzəldən yarası vardır

Dərdinə çarə yox, şəfadən yazır
Çəkdiyi cövürdən - cəfadən yazır
Eytibar düşünub, vəfadən yazır
Vəfasız gözəldən yarası vardır

Könlünə qafiyə tapılmaz onun
Canında dağları çapılmaz onun
Heç şeyri, sadəcə yapılmaz onun
Qoşmadan, qəzəldən yarası vardır

Zaman heybəsində yaralır narı
Yanında yar görmür, yazdığı yarı
Unudur ömrünü, eyləyir yarı
*Elman*am yüz əldən yarası vardır